AMEA *İqtisadiyyat İnstitutu*
ISSN 2519-4909

«ELMİ ƏSƏRLƏR» - №6- 2017
E-ISSN 2519-4917

UOT: 33:311
JEL: C 15

TAĞIYEVA M.K *i.ü.f.d.*
Azərbaycan Kooperasiya Universitetinin
"Mühasibat uçotu və audit" kafedrasının dosenti

AZƏRBAYCAN RESPUBLİKASININ MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİNİN STATİSTİK ÜSULLA HESABLANMASI VƏ ONLARIN ARTIRILMASININ MÜTƏRƏQQİ YOLLARI

Xülasə

Məqalənin məqsədi- Respublikamızda fəaliyyət sahələrinin işinin səmərəlliyinin və makroiqtisadi göstəricilərin artırılması yollaının öyrənilməsidir.

Məqalənin metodologiyası- makroiqtisadi göstəricilərin müqayisəli təhlili aparılıb və sisitemli yanaşma həyata keçirilib.

Məqalənin nəticəsi- fəaliyyət sahələrində ümumiləşdirici göstəricilər sisteminin köməyi ilə makroiqtisadi göstəricilərin artırılması yolları müəyyənləşdirilib.

Açar sözlər: *makroiqtisadi göstəricilər, qeyri-neft sektorları, maliyyə statistikası, gəlirlər, xərclər, ümumiləşdirici göstəricılər sistemi.*

GİRİŞ

Azərbaycanın dövlət müstəqilliyinin təmin edilməsi, aparılan iqtisadi islahatlar, ölkə iqtisadiyyatının inkişafı və dünya təsərrüfat sisteminə daha sıx inteqrasiya olunması üçün əlverişli şərait yaratmışdır. Məhz belə bir şəraitdə milli iqtisadiyyatın formalaşması və ölkənin dünya bazarında yerinin müəyyən edilməsi, onun mövqeyinin perspektiv dövr üçün möhkəmləndirilməsi dövlətin siyasi –iqtisadi fəaliyyətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Azərbaycan dövləti daxili bazarın inkişafı və fəaliyyəti üçün çevik infrastrukturun yaradılması, biznes və sahibkarlıq fəaliyyətinin inkişafı, xarici iqtisadi əlaqələrin genişləndirilməsi, maliyyə – kredit, bank işi, pul tədavülünün yenidən qurulması, yeni iş yerlərinin açılması, inflayasiya və işsizliyin qarşısının alınması, əhalinin sosial müdafiəsinin təşkili sahəsində məqsədyönlü iş aparır. Respublikamızda xidmət sferalarının, istehsal sahələrinin daha da genişləndirilməsi ümumi daxili məhsulun yüksəlməsinə zəmin yaradıb. Bu müvafiq işlərin gerçəkləşməsində dövlət öz funksiyası çərçivəsində iqtisadiyyatın müxtəlif sahələrinə aid tənzimləyici tədbirlər həyata keçirir. Azərbaycan dövlətinin həyata keçirdiyi iqtisadi siyasət artıq öz bəhrəsini verir və bu xalqın maddi rifahının daha da yüksəldilməsi ilə müşayiət olunur. Nəhayət, Azərbaycan dövlətinin strateji yolu yalnız demokratiya, sərbəst bazar iqtisadiyyatı, ölkədə sahibkarlıq fəaliyyəti və biznesin inkişaf etdirilməsidir. Bütün bunlar öz növbəsində makroiqtisadi göstəricilərin artmasına və bununla da dövlət büdcəsinin gəlirlərinin yüksəlməsinə müsbət təsirini gğstərəcək.

Azərbaycan Respublikasının sosial-iqtisadi göstəricilərinin təhlili və artırılması yolları.

Dünyada qlobal böhran dərinləşsə də, Azərbaycan iqtisadiyyatı öz inkişaf tempini qoruyub saxlayıb. Neftin ucuzlaşmasına, valyuta məzənnələrinin dalğalanmasına baxmayaraq, valyuta ehtiyatları qorunub, hətta artıb. Sahibkarlara dövlət köməyi nəticəsində 8100-dən çox yeni iş yerinin açılmasına imkan yaranıb.

Yüksələn qlobal risklər fonunda 2016-cı ildə Azərbaycan iqtisadiyyatı inkişaf edib, bütün əsas vəzifələr icra olunub. Rəsmi statistikaya əsasən, 2016-cı ildə ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 60 milyard manatlıq ümumi daxili məhsul istehsal edilib. Əüksə dəyərin 37,4 faizi sənayedə, 10,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 10,0 faizi tikinti, 6,8 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə, 18,0 faizi isə digər sahələrdə yaradılıb. Məhsula və idxala xalis vergilər ÜDM-in 7,7 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 6223,8 manata bərabər olub. Qeyri-neft sektorunda məhsul istehsalı 5,0 faiz artıb, neft sektorunda isə 1,1 faiz

azalıb. Qeyri-neft sektorunun inkişafına diqqətin artırılması, edilən güzəştlər nəticəsində iş yerlərinin sayı artıb. 2017-ci il yanvarın 1-i vəziyyətinə iqtisadi fəal əhalinin sayı 5012,7 min nəfər təşkil edib.[1]

Ötən ilin dekabrın 1-i ilə müqayisədə muzdla işləyənlərin sayı 1514,4 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 889,5 min nəfər, qeyri-dövlət sektorunda isə 624,9 min nəfər olub. İqtisadiyyatın neft sektorunda 34,2 min nəfər, qeyri-neft sektorunda isə 1480,2 min nəfər çalışıb. Qeyri-neft sektorunun dinamik inkişaf tempi özünü ilk növbədə vergi daxilolmalarının həcmində də göstərir. Məsələn, 2017-ci il büdcəsində ilk dəfə olaraq büdcə gəlirlərinin 50%-dən çoxu qeyri-neft sektoru gəlirləri hesabına formalaşacaq.

Aşağıda göstərilən diaqramda qeyri-neft sektorlarının xüxusi çəkisi göstərilmişdir.[1]

Şəkil №1

Azərbaycan Respublikasının 2017-ci il üzrə qeyri-neft sektorunun strukturu



Ötən ildə qeyri-neft sektorunun inkişafını təmin edən addımlardan biri də qanunlara edilən dəyişikliklər olub. Ən son olaraq "Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında" qanun layihəsi ərsəyə gətirildi. Hansı ki, Vergi Məcəlləsinin 58.7 maddəsinə əsasən tətbiq edilən maliyyə sanksiyaları üzrə yaranmış 2107-ci ilin 1 yanvar tarixindən vergi orqanlarındakı şəxsi vərəqlərində mövcud olan borcların müvafiq icra hakimiyyəti orqanları tərəfindən silinməsini nəzərdə tutur.

Bundan əlavə qeyri-neft sektoruna dəstək məqsədilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi" hazırlandı. Bu fundamental sənəd iqtisadiyyatda sadəcə özəl sektorun deyil, həm də kiçik və orta biznesin rolunu artırılmasına böyük dəstək verəcək. Yol xəritəsinin vəzifəsi uzun müddət neft sektorunun hesabına inkişaf edən Azərbaycan iqtisadiyyatını balanslaşdırmaqdır. Bunun üçün hökumət iqtisadiyyatın "avanqard" sektoruna fokuslanmağı və əsas diqqəti hasilata deyil, emala, dövlət biznesinə deyil, şəxsi biznesə, az gəlirli bazarlara deyil, yüksək gəlirli işlərə, yüksək ixtisaslı iş qüvvəsinin formalaşdırılmasına yönəldəcək. Sənəd üç dövri əhatə edir: 1) 2020-ci ilə qədər, 2) 2025-ci ilə qədər 3)2025-ci ildən sonra.

Ümumiyyətlə, Azərbaycanda ötən 8 ildə qeydə alınan sürətli iqtisadi inkişafda neft sektorunun rolu aparıcı olsa da, son illər qeyri-neft sektoruna diqqət artırılıb. Ən əsası neft gəlirlərinin iqtisadiyyatın şaxələndirilməsinə hesablanmış xərclənmə strategiyası özünü doğruldub. Bu strategiya nəticəsində ölkədə tikinti, turizm, kənd təsərrüfatı, nəqliyyat, informasiya və kommunikasiya texnologiyaları sektorlarında davamlı artım baş verib.

2016-cı ilin əvvəlində neftin qiyməti 30 dollara qədər ucuzlaşaraq, dünyada iqtisadi böhran daha dərinləşdirdi. Bu, əksər ölkələrin valyuta ehtiyatlarına təsir etdi. Amma həyata keçirilmiş islahatlar nəticəsində Azərbaycan öz valyuta ehtiyatlarını qoruyub saxlaya bildi. Azərbaycan Respublikasının statistik göstəricilərinə istinadən

valyuta ehtiyatlarının ümumi həcmi 2016-cı il oktyabrın 1-nə 39,95 milyard dollar təşkil edib. Bunun 89,66%-i (35,82 milyrad dollar) Dövlət Neft Fondunun (ARDNF), 10,34%-i (4,13 milyrad dollar) Mərkəzi Bankın (AMB) payına düşüb.2016-cı ilin III rübündə ölkənin valyuta ehtiyatları 553 milyon dollar və yaxud 1,4% artıb. Həmin dövrdə ARDNF-nin valyuta ehtiyatlarında 704,2 milyon dollar artım, AMB-nin valyuta ehtiyatlarında isə 151,2 milyon dollar azalma baş verib. [1]

Məlumdur ki, regionların hərtərəfli inkişafı sahəsində 2004-cü ildən Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları təsdiq edilir. Təkcə 2015-ci ildə Azərbaycan regionlarının inkişafına bütün mənbələr hesabına 3,6 milyard manat vəsait yönəldilib. Proqramların icra olunduğu 12 il ərzində ümumi daxili məhsul 3,2 dəfə, o cümlədən qeyri-neft sektoru 2,6 dəfə, sənaye 2,7 dəfə, kənd təsərrüfatı 1,5 dəfə, investisiyalar 6,5 dəfə, əhalinin gəlirləri 6,5 dəfə, orta aylıq əməkhaqqı 5,5 dəfə artıb. İşsizlik və yoxsulluq son illər ərzində beş faizə düşüb, pensiyalar 7 dəfə artıb, 1 milyon 500 min iş yeri yaradılıb. Onlardan 1 milyonu daimi iş yeridir. 100 köçkün qəsəbəsi tikilib, 225 min insan yeni mənzillərə köçürülüb. Ölkə üzrə bütün çadır şəhərcikləri ləğv edilib. Azərbaycan sahibkarlarına 2 milyard manat güzəştli kreditlər verilib. Güzəştli kreditlər hesabına regionlarda, eləcə də Bakı şəhərində və onun qəsəbələrində layihələr reallaşdırılıb. 8100-dən çox yeni iş yerinin açılmasına imkan yaranıb. Güzəştli kreditlərin 74%-i respublikanın regionlarının, 26%-i isə Bakı şəhəri və onun qəsəbələrinin payına düşüb. Verilən kreditlərin 82,3%-i aqrar sektorun, 17,7%-i sənaye və digər sahələrin inkişafına yönəldilib. Güzəştli kreditlər müasir heyvandarlıq və istixana kompleksləri, logistik mərkəzlər, ixtisaslaşdırılmış "yaşıl market", çörək zavodları, iri fermer, quşçuluq və intensiv bağçılıq, pambıqçılıq, zeytunçuluq və tütünçülük təsərrüfatları, ət və süd, meyvə-tərəvəz məhsullarının emalı, ət kəsimi, un və un məmulatları, balıq yemi, mətbəx və məişət malları, mebel, tara, tikinti materiallarının istehsalı və s. sahələr üzrə layihələrin maliyyələşdirilməsinə yönəldilib.

Ümumiyyətlə son illər təkcə dövlətin maliyyə dəstəyi ilə müasir texnologiyalara əsaslanan 43 quşçuluq təsərrüfatı, 23 cins heyvandarlıq kompleksi, 8 süd və 6 ət emalı müəssisəsi, 39 intensiv bağçılıq və üzümçülük təsərrüfatı, 43 müasir istixana kompleksi, 16 meyvə-tərəvəz emalı müəssisəsi, 51 logistik mərkəz və 22 taxıl anbarı kompleksi yaradılıb. Bu da istehlak bazarının sabitləşməsində, ixrac potensialının artmasında, idxaldan asılılığın azalmasında, ümumilikdə ərzaq təhlükəsizliyinin möhkəmlənməsində əhəmiyyətli rol oynayıb. Nəzərə çatdıraq ki, 2017-ci ildə Azərbaycan iqtisadiyyatının inkişaf ili olacaq. İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanmış 2017-ci il və sonrakı üç il üzrə ölkənin iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəricilərinə əsasən, cari ildə ölkədə ÜDM-in real iqtisadi artımı 1% olmaqla 61,4 mlrd. manat təşkil edəcək.

2018-2020-ci illər ərzində artım tendensiyasının davam edəcəyi və 2020-ci ildə ÜDM-nin real artım tempinin 2,4% olacağı proqnozlaşdırılır. Qeyri-neft sektorunda ÜDM-in real ifadədə 2,5% artaraq 41,7 mlrd. manat olacağı proqnozlaşdırılır.

Özəl sektorun ÜDM-də payı 82,8% həcmində nəzərdə tutulur. 2017-ci ildə sahə strukturuna görə, ümumi daxili məhsulun 4 mlrd. manatı və ya 6,4%-i kənd, meşə və balıqçılıq təsərrüfatının, 22,2 mlrd. manatı və ya 36,2%-i sənayenin, 6,1 mlrd. manatı və ya 9,9%-i tikintinin, 24,3 mlrd. manatı və ya 39,6%-i xidmətlərin istehsalının, 4,8 mlrd. manatı və ya 7,8%-i məhsula və idxala xalis vergilərin payına düşəcək.

Prezident İlham Əliyev tərəfindən imzalanmış "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Fərmanın çox böyük əhəmiyyəti var.

Qeyd edək ki, Strateci Yol Xəritəsi milli iqtisadiyyatımızın yaxın, orta və uzunmüddətli dövrdə dinamik inkişafına real zəmin yaradacaq. Bəllidir ki, strateji yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı özündə ehtiva edir. Fərmana əsasən, milli iqtisadiyyat perspektivi və onun 11 prioritet sektoru üzrə strateji yol xəritələrinin

müəyyənləşdirilməsi Azərbaycanın yaxın, orta və uzunmüddətli perspektivdə inamlı inkişafını təmin edəcək. Milli iqtisadiyyat və onun 11 sektoru üzrə strateji yol xəritələri müəyyənləşdirilərkən indiki dövrdə meydana çıxan yeni çağırışlar və qarşıda duran prioritet vəzifələr nəzərə alınıb. Bəhs olunan Fərmanla təsdiqlənən strateji yol xəritələrində həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin reallaşdırılması ilə bütövlükdə milli iqtisadiyyatımız, onun aparıcı sektorları tamamilə yeni və daha möhkəm əsaslar üzərində inkişaf edəcək. Xüsusilə qeydt etmək istəyirik ki, Prezident İlham Əliyevin imzaladığı müvafiq Fərmanda nəzərdə tutulan tədbirlər ölkədə investisiya və rəqabət mühitini daha da yaxşılaşdırmaqla iqtisadi aktivliyin artmasına müsbət təsir göstərəcək.

Müasir dövrdə qeyd olunan tədbirlərin həyata keçirilməsi ilə bağlı elmi işlərin aparılması, problemlərin aşkar olunması və həlli yolunun həyata keçirilməsi ön plana çəkilir. Elə bu baxımdan "Azərbaycan Respublikasının makroiqtisadi göstəricilərinin statistik üsulla hesablanması və onların artırılmasının mütərəqqi yolları" adlı elmi məqalənin yazılması və həyata keçirilməsi ən aktual məsələ hesab edilir.

Fəaliyyət sahələrinin işinin yaxlaşdırılması istiqamətləri və bununla bağlı ümumiləşdirici göstəricilərin tətbiqi qaydası.

Ölkədə həyata keçirilən siyasi, iqtisadi və sosial islatlarla əlaqədar olaraq maliyyə və bank işləri sahəsində də ciddi dəyişikliklər baş vermişdir. İndi dövlət büdcəsi, sığorta işi, əmanət və təsərrüfatların kreditləşdirilməsi sahələrində müəssisə və təşkilatlar bazar iqtisadiyyatının xüsusiyyətlərinə uyğun olaraq fəaliyyət göstərirlər. Maliyyə və kredit sahəsində mərkəzi idarəetmə prinsiplərinin bir qismi saxlanılsa da, bu sahədə fəaliyyət göstərən idarə və təşkilatlar getdikcə öz işlərini bazar münasiətlərinə daha çox uyğunlaşdırırlar. Odur ki, maliyyə və bank statistikasının qarşısında bu islahatlarla əlaqədar olaraq yeni-yeni vəzifələr meydana çıxır ki, bunların da yerinə yetirilməsi statistika işlərinin müasir dövrün xüsusiyyətlərini nəzərə amaqla yerinə yetirilməsini tələb edir. Hər şeydən əvvəl maliyyə və bank işləri sahəsində statistika məlumatı mənbələrinin təkmilləşdirilməsi müasir dövrün tələblərinə uyğunlaşdırılması vəzifəsini yerinə yetirmək tələb olunur. Bu vəzifənin ön plana çəkilməsi dövlət büdcəsinin gəlir mənbələri və xərc istiqamətlərində baş vermiş ciddi dəyişikliklər, kapital qoyuluşlarının əsasən müssisələr tərəfindən həyata keçirilməsi, sığorta və əmanət işlərinin kökündən dəyişdirilməsi, bank sistemində müxtəlif bankların yaranması və fəaliyyət göstərməsi, mülkiyyət formalarının quruluşunda baş vermiş ciddi dəyişikliklər ilə əlaqədardır. [2]

Bu göstəricilər sistemi müasir şəraitdə maliyyə və bank sistemində baş verən hadisə və proseslərin daxili qanunauyğunluqlarını, inkişaf xüsusiyyətlərini aşkar etməyə imkan verməlidir.

Maliyyə statistikasının qarşısında duran problem məsələləri əsasən aşağıdakılardan ibarət hesab etmək olar:

1.Dövlət büdcəsinin gəlir və xərclərinin həcmi, quruluşu və dinamikasının öyrənilməsi.Ölkənin ümumi daxili məhslu və yaradılmış yeni dəyərin bölgüsü, yenidən bölgüsü və istifadəsi prosesində dövlət büdcəsi gəlirləri və xərclərinin rolu və əhəmiyyətinin öyrənilməsi;

2.Sığorta işinin müxtəlif istiqamətləri və növləri üzrə sığorta ilə əhatə edən olunma dərəcəsinin, sığorta tariflərinin, məbləğlərinin, sığorta hallarının həcmi, səviyyəsi və dinamikasının öyrənilməsi;

3.İqtisadi fəaliyyət sahələrinin qisamüddətli və uzunmüddətli kreditləşdirilməsi, kreditlərin məbləği, müddəti, ödənməsi, borclar və s. həcmi, səviyyəsi, quruluşu və dinamikasının öyrənilməsi;

4.Əhalinin əmanətləri, əmanətlər və əmanətçilərin sayı, əmanətlərin məbləği, öyrənilməsi;

5.Dövriyyə buraxılmış nəğd pul kütləsinin faktiki həcmi, zəruri kütləsi, dövriyyə surəti, miqrasiyası, əskinas quruluşu, alıcılıq qabiliiyəti kimi məsələlərin araşdırılması və təhlili;

6.İstehsal, dövriyyə və xidmət sahələrində pul fondlarının əmələ gəlməsi, mənfəət, rentabellik, dövriyyə vəsaitləri, onlardan istifadə və öyrənilməsi;

Maliyyə sistemində dövlət büdcəsi həlledici əhəmiyyətə malikdir. O maliyyə sisteminin bütün başqa sahələrini səmərəli fəaliyyət göstərməsinə əhəmiyyətli təsir göstərir. Ölkənin iqtisadi və sosial inkişafı əhəmiyyətli dərəcədə dövlət büdcəsinin yerinə yetirilməsindən aslıdır.

Dövlət büdcəsi statistikası bu məlumatlardan istifadə edərək, dövlət büdcəsinin statistik təhlili sahəsində öz mühüm vəzifələrini yerinə yetirir ki, bunlara da aşağıdakıları aid etmək olar:

- Dövlət büdcəsinin gəlir və xərclərinin ümumi həcminin, onların ayrı-ayrı növlərinin, mənbələrinin və istiqamətlərinin həcmini, dinamikasının quruluşunun və onda baş verən dəyişiklərin öyrənilməsi.
- Büdcə təşkilatlarının şəbəkəsi, ştatları və heyətinin onlara çəkilən xərclərin öyrənilməsi:
- Dövlət büdcəsinin yerinə yetirilməsi gedişi haqqında informasiyasının toplanması və işlənməsi:
- Gələcək dövrlərin dövlət büdcəsinin layihələrinin hazırlanması üçün yerinə yetirilmiş büdcələrin məlumatlarının seçilməsi və sistemləşdirilməsi.

Dövlət büdcəsinin gəlirlərinin təhlili zamanı gəlirlərin ümumi həcminin hansı hissəsinin vergilər, hansı hissəsinin qeyri-vergilər hesabına əmələ gəldiyini müəyyən etməyin xüsusi əhəmiyyəti vardır. Bunun üçün gəlirlərin ümumi həcmində onların hər birinin xüsusi çəkisi hesablanır və statistik üsullardan, katiqoriyalardan, metodlardan istifadə etməklə təhlil edilir. Vergilərin dövlət büdcəsinin gəlirlərinin ümumi həcminin formalaşmasında oynadığı rolun güclənməsi, yəni bu gəlirlərin həm məbləğcə, həm də xüsusi çəki etibarilə getdikcə artması ölkədə iqtisadi və sosial inkişafın güclənməsinə dəlalət edir. Vergi gəlirlərinin artmasına iki amil- həm vergi bazasının, yəni vergiyə cəlb edilən məbləğin artması həm də vergi dərəcsinin yüksəlməsi təsir göstərir.

Bu amillərin təsir dərəcəsi aşağıda qeyd olunan formada hesablanmasını məqsədə uyğun hesab edirəm:

• Birinci amilin təsiri:

$$VB= (B_1-B_0) \times D_0 \qquad [3]$$

• İkinci amilin təsiri:

$$VD = (D_1-D_0) \times B_1 \qquad [3]$$

Burada, B_0 və B_1 müvafiq olaraq əsas və hesabat dövründə vergi bazasının məbləğini, D_0 D_1 isə vergi dərəcəsini göstərir.

Maliyyə münasibətlərinin ən mühüm tərkib hissələrindənbiri sığorta münasibətləridir. Sosial sığorta statistikasının əsas vəzifələri sığorta büdcəsinin gəlir və xərclərinin həcmini, quruluşunu, dinamikasını öyrənməkdən ibarətdir. Sosial sığorta əsasən müəssisə və təşkilatların vəsaiti hesabına həyata keçirilir.

Maddi məhsul istehsalı ilə məşğul olan iqtisadiyyat sahələrinə sənaye, kənd təsərrüfatı, tikinti, meşə təsərrüfatı və digər sahələr aiddir. Bu sahələrdə istehsal edilən məhsullar həm istehsal istehlakını, həm də şəxsi istehlakı təmin edir. Ümumi daxili məhsulun dəyərinin əsas hissəsi bu sırf istehsal sahələrinin payına düşür. Bu istehsal sahələrinin inkişafı onların müasir şəraitin tələblərinə müvafiq olaraq tam iəsərrüfat hesabı əsasında fəaliyyət göstərən müəssisə və təşkilatlarının maliyyə vəziyyətindən asılıdır. Maliyyə vəziyyətinin normal olması istehsalçı müəssisə və təşkilatların əsas və dövriyyə istehsal fondları ilə, işçi qüvvəsi ilə və istehsalın digər komponentləri ilə vaxtlı – vaxtında və tamamilə təmin edilməsinə, bununla da, istehsalın inkişafına şərait yaradacaq. İstehsalçı müəssisələrin maliyyə vəsaitinin əsas mənbəi məhsul istehsalı və satışından ibarətdir. Müasir şəraitdə bu müəssisələrin maliyyə vəziyyəti hansı məhsulu hansı keyfiyyətdə, hansı həcmdə istehsal etməkdən, Bu məhsulu tez realizə edib maliyyə vəsaiti əldə etməkdən asılıdır. Bu o deməkdir ki, hər bir müəssisə indiki şəraitdə ölkəyə lazım olan, yüksək standartlara uyğun olan məhsulları istehsal edib realizə etməlidir. Yalnız bu yolla maliyyə vəziyyətini yaxşılaşdırmaq, böhran vəziyyətindən çıxmaq mümkündür.

Maliyyə göstəricilərinin əsasını satılmış məhsulun və göstərilmiş xidmətlərin ümumi dəyəri təşkil edir ki, buna da ümumi gəlir deyilir. Satılmış məhsul və xidmətlər dedikdə, təhvil verilmiş və dəyəri ödənilmiş məhsul və xidmətlərin ümumi həcmi nəzərdə tutulur. Ümumi gəlirin həcminin böyük olması və getdikcə artması nəticə etibarilə maliyyə vəziyyətinin yaxşılaşmasına, səbəb olur. [3]

Satışdan ümumi gəlirin dinamikasını indeks metodu ilə təhlil etmək olar. Onun ümumi həcmi indeksini belə ifadə etmək olar.

$$İpq= \Sigma\, q_1\ p_1/ \Sigma\, q_0\ p_0 \qquad [3]$$

Bu indeksin surəti hesabat dövründə, məxrəci isə əsas dövrdə cari dövrün qiymətlərilə satışdan gələn ümumi gəlirin məbləğini göstərir. Bunlar arasındakı fərq isə əsas dövrə nisbətən hesabat

dbvründə həm satılmış məhsul və xidmətlərin miqdarı, həm də qiymətlərinin dəyişilməsi nəticəsində ümumi gəlirin məbləğinin artımını (+) və ya azalmasını (-) göstərir:

$$\Delta qp = \Sigma q1p1 - \Sigma q0p0 \quad [3]$$

Satışdan ümumi gəlirin fiziki həcminin dinamikası ümumi fiziki həcm indeksi əsasında öyrənilir:

$$Jqp = \Sigma q1p0 / \Sigma q0p0$$

Bu indeksin surəti əsas dövrün faktiki qiymətlərilə hesabat dövrünün satışdan əldə edilən ümumi gəlirinin məbləğini, surətllə məxrəc arasındakı fərq isə satılmış məhsul və xidmətlərin miqdarının artması və ya azalması nəticəsində satışdan ümumi gəlirin məbləğinin müvafiq surətdə artması (+) və ya azalmasını (-) göstərir:

$$\Delta q = \Sigma q1p0 - \Sigma q0p0 \quad [3]$$

Satışdan əldə edilən ümumi gəlir və onun həcminin dəyişməsi öz əksini hər şeydən əvvəl, maliyyə göstəriciləri arasında xüsusi əhəmiyyətə malik olan mənfəətin həcmi göstəricisində tapır.

Mənfəət ümumiyyətlə əldə edilmiş ümumi gəlirin məbləği ilə görülmüş işlərə çəkilmiş xərclərin ümumi məbləği arasındakı fərq kimi müəyyən edilir. Lakin istehsalçı müəssisələr müxtəlif istiqamətli fəaliyyətlərdən mənfəət əldə edə bilərlər ki, buna da balans mənfəəti deyilir.

İstehsalçı müəssisələrin balans mənfəətinin ən mühüm tərkib hissəsi məhsulun, işlərin və xidmətlərin satışından əldə edilən mənfəətdir. Bu göstərici məhsulun, işlərin və xidmətlərin satışından əldə edilən ümumi gəlirin məbləği ilə onun istehsalına və satışına çəkilən və maya dəyərinə, əlavə dəyər vergisinə və aksizlərə, gəlirdən çıxılan sair məsrəf və ayırmalara daxil edilən xərclərin məbləği arasındakı fərq kimimüəyyən edilir.

Bunu ümumi şəkildə belə yazmaq olar:

$$P = \Sigma qp - \Sigma qz = \Sigma q (p - z) \quad [3]$$

Burada Σqz – məhsulun işlərin və xidmətlərin istehsalı, satışı ilə əlaqədar olan, həmçinin digər xərclərin ümumi məbləğini əks etdirir (bu göstəricinin (P) qiymətinin müsbət olması müəssisənin mənfəət əldə etməsini, mənfi olması isə zərərli işləməsini göstərir). p-z ifadəsi satılmış məhsulun hər vahidindən əldə edilmiş mənfəətin (zərərin) məbləğini göstərir.

Mənfəət həcminin dəyişilməsi onun mütləq artımı və dinamikası indeksləri ilə xarakterizə oluna bilər. Onun mütləq artımını (ΔP) belə hesablamaq olar:

$$\Delta P = P1 - P0 = (\Sigma q1p1 - \Sigma q0p1) – (\Sigma q0p0 - \Sigma q0z0) = \Sigma q1 (p1 - z1) - \Sigma q0 (p0 - z0) \quad [3]$$

Mənfəətin ümumi həcm indeksini isə belə yazmaq olar:

$$İq = P1 / P0 = \Sigma q1p1 - \Sigma q0z1 / \Sigma q0p0 - \Sigma q0z0 = \Sigma q1 (p1 - z1) / \Sigma q0 (p0 - z0) \quad [3]$$

Bir məhsul növünün satışından əldə edilən mənfəətin həcmi indeksi isə belə şəkil alır:

$$İn = İq \times İp$$

Burada İn - satılmış məhsulun (işin, xidmətin) hər vahidindən əldə edilmiş mənfəətin fərdi indeksidir.

Düsturdan göründüyü kimi, bir məhsul növü üzrə satışdan mənfəətin həcm indeksi satılmış bir növ məhsulun fiziki həcm indeksi ilə həmin növ məhsul vahidinin satışından əldə edilən mənfəətin fərdi indeksinin hasilinə bərabərdir. İstehsalçı müəssisələrin maliyyəsi bir sıra ümumiləşdirici statistika göstəriciləri ilə, o cümlədən satışın və mənfəətin həcmi, rentabellik səviyyəsi, dövriyyə vəsaitlərinin həcmi, onlardan istifadə və s. göstəricilərlə xarakterizə edilir ki, bunlar da maddi məhsul istehsalının müxtəlif sahələrində onların özünəməxsus xüsusiyyətlərini nəzərə almaqla hesablanır və təhlil edilir. Bu sahədə statistikanın əsas vəzifələri həmin göstəriçiləri hesablayıb təhlil etmək yolu ilə onların səviyyəsini, quruluşunu, dinamikasını öyrənmək, mövcud olmuş, lakin istifadə edilməmiş imkanları aşkar etməkdən ibarətdir. Statistikanın müasir şəraitdə ən mühüm vəzifələrindən biri maliyyə münasibətlərini xarakterizə etmək üçün informasiya mənbələrinin, onların əldə edilməsi və işlənməsi metodlarının təkmilləşdirilməsindən ibarətdir.

Sonda bütün bu təhlil və fikirlərə yekun vuraraq qeyd edək ki, Azərbaycan dövlətinin müasir dövrə uyğun inkişafı, ölkənin iqtisadi qüdrətinin güclənməsi, nəhəng regional layihələrin həyata keçirilməsi işlərinə öz töhfəsini verməkdədir. Bununla da müstəqil dövlətimizin sosial-iqtisadi siyasəti iqtisadi tənzimləmədə və fiskal siyasətin həyata keçirilməsində aparıcı amilə çevrilmişdir.

Ölkə Prezidenti cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində müasir Azərbaycanımızda yerli istehsal, sənaye sahələri, idman və turizm, kənd təsərrüfatı inkişaf etmiş və buna uyğun da makroiqtisadi göstəricilər artmış və əhalinin sosial vəziyyəti yaxşılaşmışdır.

NƏTİCƏ

Prezident İlham Əliyev tərəfindən imzalanmış "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Fərmanın çox böyük əhəmiyyəti var.

Qeyd edək ki, Strateci Yol Xəritəsi milli iqtisadiyyatımızın yaxın, orta və uzunmüddətli dövrdə dinamik inkişafına real zəmin yaradacaq. Bəllidir ki, strateji yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı özündə ehtiva edir. Fərmana əsasən, milli iqtisadiyyat perspektivi və onun 11 prioritet sektoru üzrə strateji yol xəritələrinin müəyyənləşdirilməsi Azərbaycanın yaxın, orta və uzunmüddətli perspektivdə inamlı inkişafını təmin edəcək. Milli iqtisadiyyat və onun 11 sektoru üzrə strateji yol xəritələri müəyyənləşdirilərkən indiki dövrdə meydana çıxan yeni çağırışlar və qarşıda duran prioritet vəzifələr nəzərə alınıb. Bəhs olunan Fərmanla təsdiqlənən strateji yol xəritələrində həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin reallaşdırılması ilə bütövlükdə milli iqtisadiyyatımız, onun aparıcı sektorları tamamilə yeni və daha möhkəm əsaslar üzərində inkişaf edəcək. Xüsusilə qeydt etmək istəyirik ki, Prezident İlham Əliyevin imzaladığı müvafiq Fərmanda nəzərdə tutulan tədbirlər ölkədə investisiya və rəqabət mühitini daha da yaxşılaşdırmaqla iqtisadi aktivliyin artmasına müsbət təsir göstərəcək. Ölkəyə sərmayə yatırımını çoxaltmağın, investisiya cəlbediciliyinin artırılmasının başlıca şərti biznes mühitinin təkmilləşdirilməsidir. Strateji hədəflərdən biri olaraq müəyyən olunan əlverişli biznes mühitinin inkişafı ölkəmizə investor inamını yüksəltməklə iqtisadiyyata sərmayə qoyuluşu imkanlarını daha da genişləndirəcəkdir.

Vergilərin dövlət büdcəsinin gəlirlərinin ümumi həcminin formalaşmasında oynadığı rolun güclənməsi, yəni bu gəlirlərin həm məbləğcə, həm də xüsusi çəki etibarilə getdikcə artması ölkədə iqtisadi və sosial inkişafın güclənməsinə dəlalət edir. Vergi gəlirlərinin artmasına iki amil-həm vergi bazasının, yəni vergiyə cəlb edilən məbləğin artması həm də vergi dərəcsinin yüksəlməsi təsir göstərir.

Maddi məhsul istehsalı ilə məşğul olan iqtisadiyyat sahələrinə sənaye, kənd təsərrüfatı, tikinti, meşə təsərrüfatı və digər sahələr aiddir. Bu sahələrdə istehsal edilən məhsullar həm istehsal istehlakını, həm də şəxsi istehlakı təmin edir. Ümumi daxili məhsulun dəyərinin əsas hissəsi bu sırf istehsal sahələrinin payına düşür. Bu istehsal sahələrinin inkişafı onların müasir şəraitin tələblərinə müvafiq olaraq tam iəsərrüfat hesabı əsasında fəaliyyət göstərən müəssisə və təşkilatlarının maliyyə vəziyyətindən asılıdır. Maliyyə vəziyyətinin normal olması istehsalçı müəssisə və təşkilatların əsas və dövriyyə istehsal fondları ilə, işçi qüvvəsi ilə və istehsalın digər komponentləri ilə vaxtlı – vaxtında və tamamilə təmin edilməsinə, bununla da, istehsalın inkişafına şərait yaradacaq. İstehsalçı müəssisələrin maliyyə vəsaitinin əsas mənbəi məhsul istehsalı və satışından ibarətdir. Müasir şəraitdə bu müəssisələrin maliyyə vəziyyəti hansı məhsulu hansı keyfiyyətdə, hansı həcmdə istehsal etməkdən, Bu məhsulu tez realizə edib maliyyə vəsaiti əldə etməkdən asılıdır. Bu o deməkdir ki, hər bir müəssisə indiki şəraitdə ölkəyə lazım olan, yüksək standartlara uyğun olan məhsulları istehsal edib realizə etməlidir. Yalnız bu yolla maliyyə vəziyyətini yaxşılaşdırmaq, böhran vəziyyətindən çıxmaq mümkündür.

Maliyyə göstəricilərinin əsasını satılmış məhsulun və göstərilmiş xidmətlərin ümumi dəyəri təşkil edir ki, buna da ümumi gəlir deyilir. Satılmış məhsul və xidmətlər dedikdə, təhvil verilmiş və dəyəri ödənilmiş məhsul və xidmətlərin ümumi həcmi nəzərdə tutulur. Ümumi gəlirin həcminin böyük olması və getdikcə artması nəticə etibarilə maliyyə vəziyyətinin yaxşılaşmasına, səbəb olacaq.

Beləliklə, bütün fəaliyyət sahələrinin səmərəli yerləşdirilməsi və aktiv işləməsi dövlətimizin

sosial-iqtisadi göstəricilərinin gələcəkdə daha da artırılmasına zəmin yaradacaq

ƏDƏBİYYAT SİYAHISI:

1.Azərbaycanın Statistik Göstəriciləri 2017.
2.O.Q.Məmmədli, N.Ə.Cavadov, X.N.Cavadzadə "Sosial-iqtisadi statistika"I hissə. Dərslik, Bakı-2014.
3.Ə.İ.Əliyev "Statistika" Bakı-2010.

Тагиева М. К. дос.

Макроэкономические показатели Азербайджанской Республики статистические методы и прогрессивные способы их увеличения

Резюме

Целью данной статьи является изучение путей повышения эффективности бизнеса и повышения макроэкономических показателей в нашей республике.

Методология статьи - проведен сравнительный анализ макроэкономических показателей и внедрен системный подход.

Результат статьи - пути повышения макроэкономических показателей с помощью системы показателей обобщения в сфере деятельности.

Ключевые слова: *макроэкономические показатели, ненефтяные сектора, финансовая статистика, доходы, расходы, система суммирования показателей.*

Tagiyeva M. K.

Macroeconomic indicators of the Republic of Azerbaijan statistical methods and progressive ways to increase them

Resume

The purpose of this article is to explore ways to improve business efficiency and improve macroeconomic performance in our republic.

The methodology of the article is a comparative analysis of macroeconomic indicators and a systematic approach is introduced.

The result of the article is the ways of increasing macroeconomic indicators with the help of a system of indicators of generalization in the field of activity.

Key words: *macroeconomic indicators, non-oil sectors, financial statistics, revenues, expenditures, system of summarizing indicators.*